

*İlham QƏHRƏMAN*

## MÜHARİBƏ BAYATILARI

***
O düşmən fasıq getdi,
Dabanı basıq getdi.
Elə qorxdu – Şuşadan
Quyruğu qısıq getdi.

***
Mən görən hala mat qal,
Davaya, qala mat qal.
Bir də səni görmərəm,
Göy üzü, salamat qal.

***
Ağac yarpağı sevər,
Əsgər bayrağı sevər,
Daha mən torpaq oldum,
Sevən torpağı sevər!

***
Çox görən azı dedi,
Qış görən yazı dedi.
Torpaq tanıdı məni,
“Xoş gəldin, Qazi!” dedi.

***

Mən görən saya gəlmir,
Güllü var, saya gəlmir.
Dərdin çoxdumu, Vətən,
Qurbanın saya gəlmir?!

***

Mən görən çətən dərdi,
Ev dərdi, çətən dərdi.
Qurbanı çoxalır ki,
Azalsın Vətən dərdi!

## LAÇIN BAYATILARI

***

Sürülər yalda qaldı,
Görən nə halda qaldı.
Laçına gedəcəkdim,
Karvanım yolda qaldı.

***

Sabahın danı hayıf,
Xoruzun banı hayıf.
Laçın, sən ki qalırsan,
Şəhidin qanı hayıf.

***

Sızıldayan yaram çox,
Ağrımayan yerim yox.
Qəribin qaydasıdı –
Sevinci ac, dərdi tox.

***

Bir dillən sədan alım,
Bazardan badam alım.
Laçını alan əsgər,
Ay sənin qadan alım!

## SEVGİ BAYATILARI

***
Göldən uçan qu dərdi,
Suya söylə, yu dərdi.
Mənim sənsiz qalmağım,
Dəyirmanın su dərdi.

***
Qar yağıb kürək yoxdu,
Dam uçub dirək yoxdu.
Bu yol, o yar qapısı,
Aparan ürək yoxdu.

***
Bozaran hava mənəm,
Bostanda sava mənəm.
Leyləyi uçub gedən,
Boş qalan yuva mənəm.

***
Düz de düzü bilənə,
Söz de sözü bilənə.
Sevdim demək nə demək –
Səni özü bilənə?!

***
Təbriz içi çarşıdı,
Cərgələmə qarşıdı.
Ayrılıq not çevirir,
Xatirən yas marşıdı.

***
Comərdi qoy görəvə,
Yada verməz girəvə.
Yol gözləmək də işdi –
Çıx eyvana, gir evə.

***
Yeri dar, daşar gözlər,
Bəndini aşar gözlər.
Yarınan söhbəti var,
Səs salma, çaşar gözlər.

***

Sağ-sola yellən, gözüm,
Dost getdi, sellən, gözüm.
Görəndə dilim batır,
Yara sən dillən, gözüm.

***

Söndü dan ülkəri, dur,
Dur, bir addım bəri dur!
Hər gün sənə qaçıram,
Görən der: Sərsəri, dur!

***

Ay yana, gün ağara,
Üfür ney, vur nağara.
Yarı gördüm, dil batdı,
Nə ağ dindim, nə qara.

***

Aranda dağlı qaldı,
Qolları bağlı qaldı.
İllər keçdi, sən dərdim
Növrəstə, zağlı qaldı.

***

Mən görən ata kimi,
Qayıda tuta kimi?!
Naz sevgi çeşnisidi,
Gəbədə buta kimi.

***

Mən görən göydə tutdu,
Çəmən tut, göy də tutdu.
Yar sözüm söz eylədi,
Fürsəti göydə tutdu.

***

Mən görən sağır küsüb,
Yanında Bağır küsüb.
Barışa, barışmaya,
Yar məndən ağır küsüb.

***
İş tələm-tələs idi,
Dəm ləng, qəm tələsidi.
Sən getdin, agah oldum –
Sevinc qəm tələsidi.

***
Yazırsan nətər, əlim,
Bir gül qır, yetər, əlim,
Səndən yana özümdən
Darıxır betər əlim.

***
Əynində qolsuz köynək,
Cana qəsdi var – neynək.
Ürək, bu nə halətdi,
Hər yerin göynək-göynək?!

***
Yaşıl üstdən abı gey,
Ya elə innabı gey,
Yoluna ürək sərdim,
Yumşaq ayaqqabı gey.

***
Qaş qara, tel çalam a,
Üz göstər, maç alam a!
Rəbbim, duyğulu kəsi
Duyğusuza calama!

***
Şirin olar yar dadı,
Gözdən salar hər dadı.
Görən heç soruşurmu –
Zəhləm qaçan hardadı?!

***
Gül üstə yatan səni,
Saxlayar butan səni.
Məndə o ürəkmi var,
Gözümdü tutan səni.

***
Gülü şaxından görək,
Azı çoxundan görək.
Ürək deyir: qalx gedək,
Yarı yaxından görək.

***
Könül evi uçuxdu,
Dam üstünə kim çıxdı?!
Ürək yay pəncərəsi,
Hər vaxt sənə açıqdı.

***
Səhəngin boyu budu,
İçinin suyu budu.
Yar deyir yarıtmayır,
Cananın huyu budu.

***
Aşna busəni deyər,
Yolu kəsəni deyər.
Dilim buyruqdan qorxur,
Ürəyim səni deyər.

***
Qızılgülün gül vaxtı,
Gül üstündən gül baxdı.
Yara varmaq qorxulu,
Hər bir yanım çildaxdı.

***
Saatı işlək aldım,
Bostana beş lək aldım.
Yanağına oxşadı,
Almadan dişlək aldım.

***
Mən görən yalan sevgi,
Vüsala calan, sevgi.
Ağzı bağlı bıçaqdı
Örtülü qalan sevgi.